# Zəka VİLAYƏTOĞLU - 50



Hörmətli Zəka Vilayətoğlu!

Sizi - tanınmış yazıçı və şairi 50 illik yubileyiniz münasibətilə təbrik edirik!

Siz 1971-ci ildə Gədəbəy rayonunun Arabaçı kəndində ziyalı ailəsində doğulmuş, 1980-ci ildə Arabaçı kənd orta məktəbinin birinci sinfinə getmiş, 1989-cu ildə orta təhsilini başa vurduqdan sonra, həmin il, Əli bəy Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Mədəni-Maarif" fakültəsinə qəbul olmusunuz. 1993-cü ildə Bayıl Uşaq Yaradıcılıq Mərkəzində bədii rəhbər kimi fəaliyyətə başlamış, 1997-ci ildə H.Sarabski adına Mədəniyyət Sarayında dirijor, 1998-ci ildə İnşaatçıların Mədəniyyət Mərkəzində bədii rəhbər, 2004-cü ildə, ədəbi-bədii, ictimai jurnal olan "Ulu Xudafərin" jurnalının şöbə müdiri, 2018-ci ildə "11 Saylı İDYM" MMC-yə işə qəbul olunmuş, 2021-ci ildə "11 Saylı İDYM" MMC-nin İnsan Resursları Şöbəsinin rəisi təyin olunmusunuz.

Siz həm də, erkən yaşlarından müğənnilik fəaliyyətə başlamış, müğənniliklə yanaşı saz, gitara çalmağı öyrənib və elə həmin illərdən gitara ilə ilk mahnısını bəstələyibsiniz. Musiqi fəaliyyəti ilə yanaşı bədii yaradıcılığa da meyl edibsiniz. İlk şeirləriniz vaxtaşırı Gədəbəy rayonunda nəşr olunan "Tərəqqi" qəzetində, sonra "Pioner" qəzetində dərc olunub.

Hekayə və povestləriniz "Ulduz", "Azərbaycan", "Çıraq", "Ulu Xudafərin" jurnallarında, "Ədəbiyyat qəzeti", "Ədalət", "Kaspi", "Azərbaycan" qəzetləri və bu kimi bir sıra mətbu orqanlarda dərc olunur.

Siz 2013-cü ildə "Persona.az" adlı ictimai, ədəbi-bədii portal yaradıbsınız. Portalın dörd illik fəaliyyəti dövründə maraqlı layihələrə imza ataraq, "Qarabağ müharibəsi mövzusunda ən yaxşı hekayə" müsabiqəsi keçirir, I, II və III nominasiyalar üzrə qaliblər pulla mükafatlandırırsınız. Portalın bir illiyi münasibətilə, öz şəxsi vəsaitiniz hesabına, il ərzində portalda yer almış ən yaxşı bədii və tərcümə nümunələrindən ibarət kitab nəşr etdirmisiniz. Beləliklə, bir sıra gənc yazarların yaradıcılığının təbliğinə, oxucu auditoriyasında tanınmasına çalışırsınız. Bir ədəbi-bədii sayt olaraq, "Persona.az", Türkiyə Cümhuriyyəti, Malatya şəhərində, İnönü Universiteti tələbələriylə Azərbaycanın tanınmış yazarlarıyla görüşünün və Azərbaycan Ədəbiyyatı Gecəsinin təşkilində önəmli rol oynamışdır.

Siz "Şah ölüm", "Küsmüş Ay", "Güllələnmiş qaranlıqlar", "Milena", "Sənə bir söz deyəcəm...", "Bataqlıq" və s. adlı kitabların müəllifisiniz.

Hörmətli Zəka Vilayətoğlu!

Sizi bir daha 50 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 18 dekabr.- 2021- ci il.- S. 24.